Yazan
26.11.15 16:06

Bakıda silahlı insident qeyd□ alınıb.



"Dalğa TV" aznews.az-a istinadən xəbər verir ki, insident Sabunçu rayonunun Nardaran qəsəbəsində qeydə alınıb. Hadisə Nardaranda Rəhimə xanım ziyarətgahı yaxınlığında baş verib.

Məlumata görə, hadisə nəticəsində bir neçə nəfər yaralanıb. Yaralılar Sabunçu rayon 3 saylı şəhər kliniki xəstəxanasına aparılıb. Hazırda xəstaxana qarşısına xeyli insan toplaşıb.

Hadisə şahidlərinin verdiyi məlumata görə, avtomatla silahlanmış naməlum şəxs qarşısına çıxan insanlara atəş açmağa başlayıb. Hadisə bu gün təxminən saat 13.00 radələrində qeydə alınıb.

Hadisə yerinə polis əməkdaşları cəlb olunub. .

Onu da bildirək ki, hadisə ilə bağlı rəsmi qurumlardan açıqlama almaq mümkün olmayıb.

(14:15)
***

Bakıda xüsusi əməliyyat keçirilib.

APA-nın məlumatına görə, Bakının Nardaran qəsəbəsində keçirilən əməliyyat zamanı hüquq-mühafizə orqanları əməkdaşları müqavimətlə qarşılaşıblar. Nəticədə atışma olub. Baş verən atışma zamanı ölən və yaralananların olduğu bildirilir.

Əməliyyat zamanı bir neçə nəfər saxlanılıb.

(14:33)
***

Xəstəxananın reanimasiya şöbəsindən verilən məlumata görə, 2 nəfər ölüb.

14:35
***

Ölən və yaralananlar arasında polis əməkdaşlarının da olduğu bildirilir.

15:05
***

Bu gün Nardaranda baş vermiş silahlı insident nəticəsində iki polis əməkdaşının həlak olduğu bildirilir.

APA-nın məlumatına görə, polisə müqavimət göstərən radikal qrupun Abbas adlı bir üzvü də öldürülüb.

Atışma zamanı daha bir neçə nəfər isə yaralanıb.

Onların arasında polis əməkdaşları da var.